**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.148
**UOT: 39 (069)**

# İSLAM MƏDƏNİ İRSİNİN QORUNMASINDA TARİX MUZEYİNİN ROLU (MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏT NÜMUNƏLƏRİ ƏSASINDA)

**Vəfa HƏSƏNOVA***

***Açar sözlər:*** *Tarix muzeyi, mədəni irs, Etnoqrafiya fondu, maddi, mənəvi*

## XÜLASƏ

Tarix Muzeyində mühafizə olunan İslam mədəniyyətinə aid bir çox dini inanc nümunələri, habelə geyimlər, ibadət üçün istifadə olunan əşyalar böyük maraq doğurur. Etnoqrafiya fondunda qorunan bu əşyalar ənənəvi məişətdə və müsəlmanların həyat tərzində islami dəyərlərin əhəmiyyətini bariz şəkildə əks etdirir. Əşyalar əsas etibarı ilə XIX-XX əsrin əvvəllərinə aid edilir. Fondda qorunan Quran və quranqabılar, dini məzmunlu divar bəzəkləri, canamazlar, möhürlər, təsbehlər, əba və əmmamələr, çarşablar, rübəndlər öz orijinallığı baxımından özünəməxsus yer tutmuşdur. Saxlanılan bu nümunələr xalqın tarixi mahiyyətini, həmçinin lokal-bədii xüsusiyyətləri və mədəni ünsürləri kifayət qədər özündə daşıyır. Digər tərəfdən dini-mədəni ənənələr haqqında da müəyyən təsəvvürlər formalaşır.

Dini məzmun daşıyan bu sənət nümunələri tarixi-etnoqrafik baxımdan da xüsusi əhəmiyyət daşıyır. Dua və dua qabları, qoruyucu amuletlər, ələm, kəşküllər, qırxaçar, qırxaçar camlar, gülabdanlar, türbət və digər əşyalar İslam məişətinin elementlərini və müsəlman mədəniyyətinin səciyyəvi xüsusiyyətlərini izləməyə imkan verir. Hər biri yüksək bədii zövqlə hazırlanmış bu nümunələr İslamın ənənəvi maddi və mənəvi mədəniyyət növləri ilə diqqəti cəlb edir. İslam mədəniyyətinin müəyyən məqamlarını özündə yaşadan məişət əşyaları mərasimlərlə bağlı dini məzmunlu materialları da özündə əks etdirir. Tarix Muzeyinin kolleksiyalarında təqdim olunan eksponatlar İslam dəyərlərini tərənnüm edən irs kimi müsəlman dünyasının dini səciyyəsini və mədəni ənənələrini nümayiş etdirir. Qeyd olunmalıdır ki, Azərbaycanın İslam mədəniyyətinin təbliğinə verdiyi töhfələrin xüsusi rolu vardır.

### Giriş

Ümummilli lider Heydər Əliyev İslam dəyərlərini yüksək dəyərləndirərək demişdir: “İslam dini başqa dinlərə həmişə hüsn-rəğbətlə yanaşıb, heç vaxt başqa dinlərin ehkamlarına qarşı olmayıb, biz hər bir millətə mənsub olan insana, hər dinə hörmətlə yanaşmışıq. Bu Allahın əmridir, bu bizim ulu peyğəmbərimiz Məhəmməd əleyhissəlamın bizə tövsiyəsidir”.

Müsəlman həyat tərzini, onun məişətinin təzahürünü, həmçinin etnoqrafik motivləri öyrənmək üçün Tarix Muzeyinin Etnoqrafiya fondunu nəzərdən keçirmək kifayətdir. Fondun mənəvi mədəniyyətə aid nümunələrindən başqa, maddi mədəniyyətə aid inventarları da öz incəliyi, göz oxşaması və orijinallığı baxımdan diqqəti cəlb edir. Belə ki, bu dəyərli əşyalar İslam dininin mədəni irsi haqqında müəyyən təsəvvür yaratmaqla bərabər, tarixi-etnoqrafik baxımdan da maarifləndirici təsir gücünə malikdir. Onların arasında təsviri sənət baxımından müstəsna əhəmiyyətə malik əsərlər vardır. Yüksək bədii məzmunlu bu maddi və mənəvi mədəniyyət nümunələri hər zaman ekspozisiyada nümayiş olunan dəyərli əşyalardan ibarət olmuşlar. Tarix Muzeyinin Etnoqrafiya fondunun İslam

* *Tarix Muzeyinin “Etnoqrafiya” fond şöbəsi.*
*E-mail: feyakonul@rambler.ru*

mədəni irsinə xas elementlərini nəzərdən keçirərkən onların estetik və bədii məzmunu, dövrü, daxil olma tarixi, məişətdə istifadəsi və digər təsvirlər verilmişdir.

**1. İslam mədəni irsinin maddi mədəniyyət üzrə təsnifatı**

İslamın ayrı-ayrı ölkələrdə yayılması yerli şəraitdən asılı olaraq bəzi özünəməxsus məhəlli xüsusiyyətlərin formalaşması və müxtəlif xalqlarda etno-mədəni proseslərinin intensivləşməsi prosesində baş verirdi. Əsrlər boyu bu dini qəbul edən ölkələrin xalqları ilə İslam arasında ideoloji baxımdan qarşılıqlı əlaqə və qarşılıqlı təsir olmuşdur (Quliyeva 2007, 418).

Tarix Muzeyində İslam məişətinə və mədəniyyətinə aid olan nümunələr maddi və mənəvi mədəniyyət üzrə istiqamətlənmişdir.

XIX-XX əsrin əvvəllərində Azərbaycanda İslam dininin demək olar ki, bütün qayda və qanunlarına əməl edirdilər. Toplanılan materiallar əsasında belə qənaətə gəlmək olar ki, İslam dini əhalinin həyatına əsaslı şəkildə nüfuz etmiş, müəyyən həyat tərzini formalaşdırmışdır. Hər bir müsəlmanın beş əsas vəzifəsi vardır ki, bu vəzifələr müsəlmanın bütün həyat tərzini idarə edən əsas prinsiplər hesab olunmalıdır. Vahid Allaha inam, namaz, oruc, həcc, zəkat (Əsədli, 2017, 130).

İslam mədəniyyətinin müəyyən məqamlarını özündə yaşadan məişət əşyaları həm də mərasimlərlə bağlı dini məzmunlu materialları özündə ehtiva edir.

Etnoqrafiya fondunda müxtəlif nəbati, həndəsi naxışlı, təsvirli, haşiyəli canamazlar vardır ki, dövr etibarı ilə əsasən XIX-XX əsrin əvvəllərinə aid edilir.

Canamaz (namazlıq) namaz qılanlar üçün nəzərdə tutulmuşdur, nazik, həmçinin kiçik ölçüdə toxunardı. Keçmişdə canamazlar ibadət edən müsəlmanların əvəzolunmaz xalısı olmuşdur. O, əsasən hər evdə namaz qılanların sayına uyğun toxunurdu. Xovlu xalçanın bu növü fərdi səciyyə daşıdığından, çox vaxt fərdi sifarişlə astarlı toxutdurulurdu. Taxtüstü kimi, canamaz da keçmişdə, adətən satışa çıxarılmırdı (Canamaz https://intangible.az, 1).

Canamaz ölçülərinə (kiçik və böyük), təyinatına (tək adamlıq və kütləvi), həmçinin naxış-dekor kompozisiyasına (həndəsi, nəbati naxışlar, tağ və mehrab kompozisiyası və s.), adlarına (mehrabi, cənaməz, namazlıq, tağı, səccadə və səf səccadə), eləcə də rənginə və hazırlandığı parça materialına (qələmkar, darayı, tirmənüma) görə bir-birindən fərqləndirilirdi. Canamazın ən yaxşı nümunələri Təbrizdə toxunmuşdur (Canamaz https://intangible.az, 1).

XIX əsrin nümunəsi sayılan xovlu xalça növü olan cəmcəmli canamaz üzərində 1332 yazılmışdır (İnventar № 9156).

XIX əsrin sonu - XX əsrin əvvəlinə aid, üzərində məscid təsviri, nəbati tikmə naxışlar, ərəbcə yazılar və 1331 ili həkk edilmiş təkəlduz canamaz (İnventar № 9706).

XIX əsrə aid, üzərinə həndəsi naxışlar, möhür və təsbeh təsvirləri salınmış əl işi olan pambıq canamaz (İnventar № 1465).

XIX əsrə aid, üzəri zolaqlı, astarı ipəkdən tirmə canamaz (İnventar № 1908).

XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid ipək qanovuzdan tikilmiş canamaz (İnventar № 2246).

Üzərində nəbati naxışlar və ərəbcə yazılar olan pambıq qələmkar canamaz. XIX əsrin sonu - XX əsrin əvvəllərinə aiddir (İnventar № 2251).

Üzəri ipək və güləbətin tikməli, astarı qanovuzdan, kənarları tikmədən olan əl işi məxmər qanovuz (İnventar № 2277).

Üzərində ipək sapla nəbati naxışlar salınmış və üzərindəki medalyonun içərisində "1204-cü il" yazılmışdır, əl işi sayılan pambıq canamaz (İnventar № 2529).

XIX əsrin əl işi sayılan astarı çit, kənarları isə ipəkdən tikilmiş, ölçüsü 1.17x90 sm olan qələmkar canamaz (İnventar № 2551).

Haşiyəsi bafta ilə tikilmiş, üzərinə yun sapla naxışlar salınmış XIX əsrdə Şamaxıda tikilmiş tirmə canamaz (İnventar № 3103).

XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid edilən, üzərində güləbətin tikməli və astarı ipəkdən olan atlas canamaz (İnventar № 3982).

Buta təsvirli, zolaqlı, astarı ipəkdən tirmə canamaz. XIX əsrin sonu - XX əsrin əvvəllərinə aiddir (İnventar № 4119).

Ərəbcə yazıları olan, astarı ipəkdən olan məxmər canamaz. XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid edilmişdir (İnventar № 3926).

Ətrafı yaşıl parçadan, üç tərəfi bənövşəyi taftadan maşınla tikilmiş qanovuz canamaz XX əsrin əvvəllərinə aiddir (İnventar № 4710).

Fondda mühafizə edilən üstü butalı canamazlar estetik baxımdan xoş, fərqli və ifadəli görünürlər. Onlar indiyə qədər öz incəliklərini qoruyub saxlamışlar. Bunlardan biri XIX əsrə aid, üzərində buta təsvirli və haşiyəsi ipəkdən tirmə canamazdır (İnventar № 2465).

Digəri yenə XIX əsrin yadigarı olan, üzərində buta təsvirli tirmə canamazdır (İnventar № 2439).

Haşiyəsi və astarı qanovuzdan, buta təsvirli üçüncü canamaz da (XIX əsr) tirmədəndir (İnventar № 1936).

Qeyd olunmalıdır ki, Azərbaycanda, Türkiyədə və Orta Asiyada toxunulan əksər namazlıqlar öz kompozisiyalarına görə eyni kökənli, rəssamlıq nöqteyi-nəzərindən isə bəzən fərqli şəkildə nəzərə çarpırdı. Namazlıq xalçaları sayılan namazlıq həmçinin canamaz, çaynamaz və ceynamaz (yəni namaz qılınan yer), ləçəkli, mehrabi (mehrablı), səccadə (səcdacədə) də adlandırılır. Belə ki, xovlu xalça məmulatının bir nümunəsi kimi canamaz islami düşüncə və dekorativ-tətbiqi təfəkkürün məhsulu olaraq müsəlman məişətinə VII əsrdən daxil olmuşdur (Canamaz https://intangible.az, 1).

Etnoqraf F.Vəliyev XIX əsr xalq geyimlərinin mərasim və peşə mənsubiyyəti ilə əlaqədar geyim tiplərindən başqa, dini zümrələrə məxsus geyim tiplərinin də xeyli fərqləndiyini göstərmişdir (Vəliyev 2007, 92). Bu qəbildən olan əba dini zümrəyə məxsus geyim tipi olub, XIX-XX əsrin əvvəllərində geniş yayılmışdı.

Tarix Muzeyinin Etnoqrafiya fondunda mövcud olan yun, şal və ipək parçadan tikilmiş əbaların müxtəlif formaları vardır. 753 inventar nömrəli yun əba əl işidir. Ölçüsü 134:142 sm olan əbanın ön və arxa tərəfdən qızılı sapdan naxışları vardır.

Dövr etibarı ilə XIX əsrdə Şamaxıda əldə toxunulan yun əba daha maraqlıdır. Üzərində nəbati naxışlar, yaxasında və qolunda tikmələr vardır (İnventar № 4626).

İpəkdən göy rəngli əba (İnventar № 4598) XIX əsrin sonuna aid edilir. Qoluna və yaxasına buta tirmədən haşiyə qoyulmuşdur.

Şal parçadan tikilmiş əba XIX XX əsrin əvvəllərinə aiddir. Ətəyində köbəsi vardır (İnventar 8028).

M.F.Axundovun ailəsinə məxsus kirman tirməsindən tikilmiş əba XIX əsrdə tikilmişdir (İnventar № 7233). Boynu qurama tirmədir.

Müxtəlif ornamentli qəbalar məxmərdən, qəbadan və milə-mil parçadan tikilmişdir. Qarabağa aiddir. XIX əsr qəbası məxmər parçadan tikilmişdir (İnventar № 2338).

Məkkədən gətirilmiş XIX-XX əsrin əvvəllərinə aid qəbanın üzərində qızılı sapdan ornamentlər (İnventar № 2983) vardır. Ölçüsü 77:77 sm.

Milə-mil zərli parçadan ibarət, boynunda tikmə bəzəyi, zərli qotazı olan qəba (İnventar № 6696) Abşeronun maddi mədəniyyətinə daxil edilmişdir (XIX-XX əsrin əvvəlləri).

Milə-mil zərli parçadan tikilmiş (İnventar № 6697) qəba Abşerona məxsusdur (XX əsrin əvvəlləri).

Muzeyin adı çəkilən fondunda müxtəlif parçalardan tikilmiş rəngarəng çarşablar əsas etibarı ilə ipək parçadandır.

Çadra Azərbaycanda İslamın bərqərar olması ilə bərabər yayılmağa başlayıb. Onu qadınlar küçəyə çıxarkən örtürdülər (Azərbaycan milli geyimləri. P.Ə. Əzizbəyova. 1972, 103).

Azərbaycanda çarşab əsasən bəzi şəhər və şəhəryanı kəndlərin sakinləri üçün səciyyəvi olub. Evdən çıxarkən qadınlar başdan ayağa qədər çarşaba bürünürdü. Çarşab bir rəngli atlasdan və dama-dama keci parçadan və müxtəlif çeşidli ipək parçalardan olurdu. Çarşab örtən qadınlar bəzən rübənddən də istifadə edirdilər (Измайлова 1983, 8).

Qubada tikilən (XIX əsr) ipək çarşab (İnventar № 9135) 2001-ci ildə fonda daxil olmuşdur.

XIX əsrin nümunəsi sayılan saçaqlı ikinci ipək çadra fabrik tikişlidir (İnventar № 1491).

Zəngin Qarabağın əl tikişinə aid olan, önündə zərli haşiyəsi olan ipək çarşab (XIX əsrin sonu - XX əsrin əvvəlləri) etnoqrafik baxımdan diqqəti cəlb edir (İnventar № 4586).

Bakının ənənəvi geyim tipinə xas olan çarşab (XIX əsrin əl işi) atlas parçadandır. Kənarlarına bafta tikilmişdir (İnventar № 4343).

XIX əsrin sonuna aid olan digər Bakı çarşabı miləmil fay parçadandır. Ətrafına qanovuz köbə tikilmişdir (İnventar № 8873).

2302 inventar saylı çarşab Şamaxılı qadına (XIX əsr) məxsus çarşabdır. Zövqlə ipəkdən (darayı) tikilmişdir.

Qanovuz parçadan Şuşada tikilmiş (XIX əsr) yarımdairəvi formalı çarşab naxışlarla bəzədilmişdir (İnventar № 7100).

XIX əsrə aid edilən Şirvan çarşabı xamya ipək parçadandır. XIX əsrin geyim tərzi sayılan çarşabın ölçüsü 1.95:1.95 sm.-dir. İnventar sayı 7512.

M.F.Axuundovun ailəsinə məxsus çarşab əl tikişidir. XIX əsr Şəki çarşab nümunələrindəndir (İnventar 4284). İpək darayıdan olan çarşabın ölçüsü 2.05:1.15 sm.

Fondda çarşabla bərabər xeyli rübənd nümunəli vardır. XIX əsr Bakısına məxsus pambıq rübənd gözə çarpandır. Gözlüyü ipək sapdan tor tikmədir. 1949-cu ildə fonda daxil olmuşdur (İnventar № 3906).

Bakı şəhərinin bir başqa rübənd nümunəsinin materialı çit parçadandır (XIX əsr). Tortikmə gözlüyü ipək sapdandır. 1936-cı ildə fonda daxil olmuşdur (İnventar №1780).

Tirmə rübənd nümunəsi də XIX əsrdə tikilmişdir. Gözlüyü boz ipdən, köbəsi isə gözəl şahpəsənddir. (İnventar № 2307).

XIX əsrin zərif əl işi hesab edilən ipək rübənd (Şuşa) at quyruğu adlanır (İnventar № 2171). Lenti zərbaftadır.

Şuşaya məxsus ikinci rübənd pambıqdandır (XIX əsr). Gözlüyü və kənarları ipək sapla tikilmişdir (İnventar № 2067).

Lənkəranın rübənd örnəklərindən fondda saxlanılan pambıq rübəndi göstərmək olar (XIX əsr). Tortikmə gözlüyü incə ipək sapdandır. 1935-ci ildə fonda daxil olmuşdur (İnventar № 1535).

Etnoqrafiya fondunda maraqlı Şamaxı rübəndlərindən biri (XIX əsrin sonu) qanovuz parçadandır. Üzərində pilək tikmə vardır. Gözlüyü güləbətin və piləklə bəzədilmişdir (İnventar № 7546).

**2. İslam mədəni irsinin mənəvi mədəniyyət üzrə təsnifatı**

Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimdir. Onların cəmiyyətdə davranışı, bir-biri ilə qarşılıqlı münasibətləri hüquqi normalarla - şəriətlə nizamlanır. Şəriət Quran və hədislər vasitəsilə müsəlmanlara çatdırılan Allah qanunlarıdır.

Müsəlman üçün Quranın ehkamları əsasında yaşamaq Allahın iradəsini ifadə etmək deməkdir (Quliyeva 2007, 417).

Muzeyin Etnoqrafiya fond şöbəsində qorunub saxlanılan Quran kitabları və zərif quranqabılar xeyli maraq doğurur. Fondda qorunan XIX əsrə aid (36 inventar nömrəli) Quran və çantasını qeyd etmək yerinə düşər. Quran ceyran dərisindən hazırlanmışdır. Üzəri nəbati naxışlardan ibarət olan Quran vərəqələri qızıl işləməlidir. Çantası isə tirmədəndir.

Azərbaycanda İslam mədəniyyətinin intişar tapması ilə tətbiqi sənətin qədim toxuma və tikmə sahəsində hazırlanan əl işlərinin üzərinə insanla Allah, dünya ilə axirət arasındakı vəhdətin incəsənətdə əks olunmasını nəzərdə tutan müxtəlif nəbati və həndəsi naxışlar salınırdı (İslam: Tarix. Fəlsəfə. İbadətlər. akad. Z.Bünyadov və f.e.d. R.Əliyevin redaktəsilə. 1994, 164).

Digər XIX əsrə aid miniatür işləməli (9159 inventar nömrəli) Quran çox incə üsluba malikdir, üzərində qızılı suya çəkilmiş nəbati naxışlar vardır. Əsas ehkamlar Quranın iki ayəsində ifadə edilmişdir: “Siz ey iman gətirənlər! Allaha inanın, onun rəsuluna inanın, öz rəsuluna nazil etdiyi kitaba inanın, daha əvvəlcə nazil etdiyi kitablara inanın; kim Allaha inanmırsa, onun mələklərinə, onun kitablarına, onun rəsullarına və axirət gününə inanmırsa, çox dərindən səhv edib yolunu azmışdır” (İmanov, Əhədov 1998, 14).

Gündə beş dəfə namaz və illik orucdan əlavə, müsəlmanların bəzi ibadətləri yerinə yetirmələri də əhəmiyyətli sayılır. Bu ibadətlərdən ən əhəmiyyətlisi isə Quranı davamlı oxumaq və yazılanları gündəlik həyata keçirmək idi (İmanov, Əhədov 1998, 15).

Muzeyin fondunda mühafizə edilən XIX əsrə aid bazubənd şəklində Quran dəridən düzəldilmişdir, üzərindəki zəngin miniatürlər göz oxşayır (2128 inventar nömrəli).

Qeyd olunmalıdır ki, fondda mühafizə olunan incə quranqabılar əsas etibarı ilə XIX-XX əsrin əvvəllərinə aiddir.

Üzərinə bafta və sarıma tikilmiş zərxara quranqabının bağının ucunda güləbətin qotaz vardır. Bu ipək quranqabı XX əsrin əvvəlinə aiddir (İnventar № 8364).

XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid atlasdan tikilmiş, üzərində həndəsi naxışları olan quranqabı (İnventar № 8468), XX əsrin əvvəlinə aid üzərində güləbətin tikmə ilə işlənmiş məxmər quranqabı (İnventar № 8382),

XX əsrin ortalarına aid, üzəri güləbətin tikməli, astarı isə rəngli qanovuz parçadan ibarət məxmər quranqabı (İnventar № 8560) xeyli maraq doğurur.

Ü.Hacıbəyovun anası Şirin xanıma məxsus quranqabının xarici güləbətin tikmədən ibarətdir və muncuqla bəzədilmişdir. XX əsrin əvvəllərinə aiddir.

XX əsrin əvvəllərinə aid digər məxmər quranqabının ətrafına bafta və qaragöz bafta tikilmişdir. Astarı taftadandır (İnventar № 7712).

Üzəri zərbuta xara, astarı qanovuzdan tikilmiş quranqabı XIX əsrə aiddir (İnventar №7609 ).

XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid fotoşəkilin üzərində “Yasin” surəsi vardır. Üzərində ərəbcə “Yasin” surəsi onun adının qrafik şəklində yazılmışdır. Ətrafında nəbati naxışlar vardır (İnventar № 4514).

Üçkünc formalı dua türbət adlanır. Baş ağrısı üçün istifadə edilmişdir (İnventar № 3849). Dua XX əsrin əvvəllərinə aiddir.

XIX əsrin sonuna aid dua qara parçanın içərisindədir. Asması qaytandan düzəldilmişdir. Bir tərəfində beş, digər tərəfində iki metal ilmə vardır (İnventar № 4500).

Fondda qorunan XIX əsrə aid əqiq daşı üzərində ərəbcə Allah və Əhli-beyt adları incə olaraq yazılmışdır (inventar № 5782).

Digər inventarda (3935) əqiq daşı üzərində ərəbcə yazılmış duadır. Ancaq bu inventar XIX-XX əsrin əvvəllərinə aiddir.

Üçüncü əqiq daşının üzərinə ərəbcə “Allahu Əkbər” sözləri həkk edilmişdir. Bu inventar da eynilə XIX-XX əsrin əvvəllərinə aid edilmişdir (İnventar № 3158).

Üzərində ərəbcə “Yasin” surəsi olan XX əsrin sonuna aid “Ayətül-kürsü” duası balıqqulağı üzərinə cızılmışdır. Üzəri sədəfdəndir (İnventar № 5534).

Fondda həmçinin mühafizə edilən “Məşhəd”, “Nəcəf”, “Kərbəla”, “Ərdəbil” adlanan təsbehlər də vardır. “Məşhəd” təsbehi 94 ədəd qara muncuq, 8 ədəd mərcan, 1 ədəd baş, 2 ədəd kiçik molladan ibarətdir. Qotazı vardır. XIX əsrin sonu - XX əsrin əvvəlinə məxsusdur (İnventar № 7819). “Nəcəf” təsbehi (XIX əsrin sonu - XX əsrin əvvəli) 94 ədəd yumru muncuq, 1 ədəd baş, 2 ədəd yastı molladan

ibarətdir. Misdən olan baş mollanın üzərində ərəb əlifbası ilə "Ya Hüseyn" yazılmışdır (İnventar № 7818). "Kərbəla" təsbehi 99 ədəd qara muncuq, 6 ədəd mərcan, 1 ədəd baş, 2 ədəd kiçik molladan ibarətdir (XIX əsrin sonu - XX əsrin əvvəli). Güləbətinlə bəzədilmiş qotazı var (İnventar № 7719). "Ərdəbil" təsbehi açıq sarı şüşədən hazırlanmışdır (XIX əsrin sonu). 99 ədəd muncuq, 1 ədəd baş, 2 ədəd kiçik molladan ibarətdir (İnventar № 8951).

M.F. Axundova məxsus təsbeh (XIX əsrin ortaları) 1956-cı ildə fonda daxil olmuşdur. 1 ədəd ağ gil, 2 ədəd şüşə təsbehdən ibarətdir (İnventar № 4305).

Burada saxlanılan sufilərə məxsus dərviş papağı və kəşküllər sufi geyimləri və həyat tərzi haqqında müəyyən təsəvvür yaradır. N.A.Smirnov qeyd etmişdir ki, sufilər Orta Asiyada "işan", "pir", Qafqazda isə "mürid", İranda "sufi", Türkiyədə "dərviş" deyə adlanmışdır. Hazırda bütün müsəlman aləmində 70 dərviş ordeni mövcuddur. Orta Asiyada isə işan adlanan sufilər sufizm metodları və məktəbi ilə yaxşı tanış idilər (197, 16). Azərbaycanın Qax, Zaqatala, Vartaşen (Oğuz), Yevlax rayonları ərazisində, eləcə də Şirvan zonasındakı bir sıra abidələr bu cəmiyyətin burada XIX-XX əsrin əvvəlində fəaliyyətdə olduğunu sübut edir (100, 16).

Fondda olan yun külah üzərindən yaşıl çit parça dolanmış əmmamə XVIII əsr nümunələrinə məxsusdur. Hündürlüyü 20 sm, diametri 27 sm. olan əmmamə muzeyə 2007-ci ildə daxil olmuşdur (İnventar № 9885).

Keçədən tikilən sufi dərviş papağı XVII-XVIII əsrdən qalma yadigardır. İpək sapla tikmələri vardır. Ölçüsü 18:18 sm-dir (İnventar № 4640).

Kəşkül sufi dərvişlərin yemək qabı olmuşdur. Kəşküllər quruluş etibarı ilə mükəmməl və bənzərsiz bir görünüşə malikdirlər. 523 saylı misdən düzəldilmiş kəşkülün ölçüsü 27:13 santimetr təşkil edir (XIX əsr). Üzərində maraqlı mərasim təsviri və ərəb yazıları vardır.

Hind qozunun qabığından ibarət kəşkül 33:14 sm. ölçüyə (XVIII-XIX əsrlər) malikdir. Kənarında zəncir keçirilməsi üçün halqası vardır (İnventar № 4082).

Eynilə hind qozunun qabığından düzəldilmiş kəşkül (XVIII-XIX əsrlər) 26:13 sm. ölçüdən ibarətdir. (İnventar № 524).

Üzərinə müxtəlif ornamentlər və Quran ayələri həkk edilmiş kəşkül hind qozunun qabığından düzəldilmişdir (XIX əsr). Əşya M.F.Axundovun kolleksiyasına məxsusdu (İnventar № 4340).

Misdən hazırlanmış qırxaçar cam Bakı şəhərinə məxsusdur (XVIII əsr). Üzərində cızma üsulu ilə Quran ayələri, Əhli-beytin adları həkk olunmuşdur (İnventar № 9337).

Bakı şəhərinə məxsus bürünc qırxaçar camın ölçüsü 14:4 sm ölçüyə malikdir (XIX əsrin sonu - XX əsrin əvvəli). Xaricində həndəsi naxışlar, ağzının içərisində haşiyə içərisində yazı vardır (İnventar № 7565).

Bürünc qırxaçar camın içərisində çıxıntı vardır (XIX əsr). İçərisi və səthi dualarla bəzədilmişdir (İnventar № 7780).

Bürüncdən qırxaçar camın hər iki üzündə ərəbcə yazılar vardır (XVII-XVIII əsrlər). Ölçüsü 14,5:4 sm.-dir (İnventar № 6175).

Mis qırxaçar camın içəridən çıxıntısı vardır. Ölçüsü 15.5:4,5 sm təşkil edir (İnventar № 4552). Üzərində dairəvi paralel xətlər arasında da dualar yazılmışdır (XVIII-XIX əsrlər).

Muzeyin Etnoqrafiya fondunda İslam mədəniyyətinə dair dəyərli eksponatlar içərisində XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid edilən üzük öz təbii zənginliyi ilə göz oxşayır. 1941-ci ildə Muzeyə daxil olmuşdur (İnventar № 3444). Qaşın içərisində Kəbə evinin təsviri vardır.

Dəyərli əşyalar içərisində divar bəzəkləri də öz zənginliyi ilə seçilirlər. Məxmər divar bəzəyinin üzərində selloiddən düzəldilmiş pəncərə təsvirinin içərisində Əhli-beytin adları yazılmışdır. Yuxarısında iki tutuquşu, aşağısında isə iki pərvanə təsviri vardır (İnventar № 4668).

Üzərində güləbətin və nəsx xəttilə Quranın "Həmd" surəsi yazılmış ikinci məxmər divar bəzəyi (XIX-XX əsrin əvvəli) 1937-ci ildə inventarlaşmışdır (İnventar № 2008).

Üçüncü məxmər divar bəzəyinin üzərində güləbətin tikmə, yanlarında nəbati naxışlar vardır. Ölçüsü 51 sm. XX əsrin ortalarında düzəldilən bu dini divar bəzəyi 1960-cı ildə fonda daxil olmuşdur (İnventar № 4392).

Dördüncü divar bəzəyi isə XIX əsrin sonunda Bakı şəhərində düzəldilmişdir. Şüşə mərkəzində Quran yazıları, ətrafında nəbati naxışlar işlənmişdir. 1950-ci ildə qəbul olmuşdur (İnventar № 2911).

Müqəddəs torpaqdan – Kəbədən gətirilən torpağın müsəlmanlar üçün nə qədər əhəmiyyət daşıdığını görmək üçün fonddakı türbətlərə nəzər yetirmək kifayətdir. Türbət (XIX əsr) 1935-ci ildə Etnoqrafiya fonduna daxil olmuşdur. İçərisində müqəddəs torpaq vardır. Üzərinə tortikmə çəkilmişdir (İnventar № 1558).

Göy rəngli ipək parça içərisində olan başqa türbət Naxçıvana məxsusdur (XX əsrin ortaları). Ölçüsü 6 sm.-dir (İnventar № 6144). 1969-cu ildə Muzeyə daxil olmuşdur.

**Nəticə**

Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mövcud olan maddi və mənəvi mədəniyyət nümunələri belə deməyə imkan verir ki, Azərbaycan xalqı islami dəyərləri mədəniyyət və məişət səviyyəsində qoruyub saxlaya bilmişdir. Ənənəvi İslam mədəniyyəti xalq həyatına geniş nüfuz etmişdir və Azərbaycan mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Sovet hakimiyyəti illərində İslam dini Azərbaycanda qadağan olunmuşdu, məscidlər və mədrəsələr dağıdılmış, dini qurumların fəaliyyəti də məhdudlaşdırılmışdı. Buna baxmayaraq, xalq İslam dininin, mədəniyyətinin mövqeyini saxlamağı bacarmışdı. Müxtəlif illərdə fonda daxil olan bir sıra maddi və mənəvi mədəniyyət səciyyəli materiallar özünün spesifik-lokal xüsusiyyətləri ilə seçilmişdir. Xalqın yaradıcı əməyinin məhsulu olan bu elementlər zəngin təsvirlərdən, ornamentlərdən və ənənəvi etnoqrafik xüsusiyyətlərdən ibarət olmuşdur.

Bu onu deməyə imkan verir ki, sinfi mənsubiyyətindən asılı olmayaraq, İslam dininin xalq məişətində təsiri danılmazdır. İslam ünsürlərinin həmçinin ümumdünya mədəniyyətinin formalaşmasında, inkişafında və bərqərar olmasında da mühüm təsirləri olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan milli geyimləri (P.Ə. Əzizbəyova). Moskva, İsskustvo, 1972, 30 s.
2. Canamaz (namazlıq). Sənətkarlıq, dekorativ sənət xalçaçılıq sənəti. Xalça məmulatları. https://intangible.az
3. Əsədli K. XIX-XX əsrlərdə Şirvan bölgəsinin etnoqrafik səciyyəsi. Bakı,Elm və Təhsil, 2017,172 s.
4. İslam:Tarix. Fəlsəfə. İbadətlər (akad. Z.Bünyadov və f.e.d. R.Əliyevin redaktəsilə). Bakı, Elm, 1994.
5. İmanov H., Əhədov A. Orta əsr İslam Şərqində fəlsəfi fikir. Bakı, Bakı Universitetinəşriyyatı, 1998,192 s.
6. Измайлова А.А. Женские головные уборы Азербайджана. Азербайджанский этнографический сборник, Баку, Элм, 1981, выпуск, IV, с.93-105.
7. Quliyeva R. Qədim dini etiqadlar. Azərbaycan etnoqrafiyası. 3 cilddə, III cild. Bakı, Şərq - Qərb, 2007, s.403-420.
8. Nemət M. Azərbaycanda nəqşibəndiyyə cəmiyyətləri. Bakı, Elm və həyat, iyul-sentyabr, № 7-9. s.15-19.
9. Смирнов Н.А. Реакционная сущность движения мюридизма и Шамиля на Кавказе. Москва,Знание, 1952, 25 с.
10. Vəliyev F. Geyimlər. Azərbaycan etnoqrafiyası. 3 cilddə, II cild. Bakı, Şərq - Qərb, 2007, s.83-92.

## РЕЗЮМЕ

***Вафа ГАСАНОВА***

### *Роль Музея Истории в сохранении наследия исламской культуры (на основе образцов материальной и духовной культуры)*

***Ключевые слова:*** *Музей Истории, культурное наследие, фонд этнографии, материальный, духовный*

Множество хранящихся в Музее Истории образцов религиозного верования, а также одежа и обрядовые предметы, относящиеся к исламской культуре, вызывают большой интерес. Эти вещи, имеющиеся в фонде этнографии наглядно отражают значение исламских ценностей в трацдиционном быте и образе жизни мусульман. Они относятся в основном к XIX - началу XX вв. Хранящиеся в фонде экземпляры Корана и чехлы для него, настенный орнамент религиозного содержания, коврики, печати для намаза, четки, хламиды и тюрбаны, чадры, вуали отличаются индивидуальным своеобразием. Эти единицы хранения в достаточной степени воплощают в себе историческую сущность, местные художественные особенности, и элементы культуры народа. А также формируют определенное представление о религиозно-культурных традициях. Эти предметы искусства религиозного содержания имеют особое значение и с историко-этнографической точки зрения. Тексты молитв и их футляры, обереги, хоругви, кешкули, чаши «гырхачар», сосуды для розовой воды, священная земля и другие вещи позволяют проследить элементы исламского быта и характерные черты мусульманской культуры. Все эти образцы, изготовленные с высоким художественным вкусом, привлекают внимание как разновидности исламской материальной и духовной культуры. Предметы быта, хранящие определенные нюансы исламской культуры, охватывают и материалы религиозного содержания, связанные с церемониями. Экспонаты, представленные в коллекции Исторического музея, демонстрируют религиозные особенности и культурные традиции мусульманского мира как наследия, прославляющего исламские ценности. Особую роль играет вклад Азербайджана в продвижение исламской культуры.

## SUMMARY

***Vafa HASANOVA***

### *The Role of the History Museum in the Preservation of Islamic Cultural Heritage (based on material and spiritual cultural examples)*

***Keywords:*** *History museum, cultural heritage, Ethnography fund, material, spiritual*

Many religious examples of Islamic culture as well as clothings and items used for worship preserved at the History Museum are of great interest. These items preserved in the ethnographic fund clearly reflect the importance of Islamic values in traditional household and Muslim lifestyle. The items are mainly attributed to the early 19th and 20th centuries. The Koran and cases for Koran, wall decorations with religious content, prayer carpet, prayer clay, rosaries, aba and ammams, sheets, rubands preserved in the fund have taken a special place in terms of their originality. These preserved samples contain the historical essence of the people, local-artistic features and cultural elements. Certain ideas about religious and cultural traditions are also formed. These art examples with religious

content are also of special importance from the historical-ethnographic point of view. Prayer and prayer bowls, protective amulets, alam, kashkuls, kirkhachar, kirkhachar glasses, rosaries, turbat and other items allow us to trace the elements of Islamic life and the characteristic features of Muslim culture. Each of these examples, made with high artistic taste, attracts attention with the traditional material and spiritual types of Islam. The household items that bring to life certain aspects of Islamic culture also contain materials with religious content related to ceremonies. The exhibits presented in the collection of the Museum of History demonstrate the religious characteristics and cultural traditions of the muslim world as a heritage that glorifies Islamic values. Azerbaijan's contributions to the promotion of Islamic culture have a special role.